UOT 372.894(47)Az

***İnal Mübariz oğlu Ağazadə***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TARİXİN TƏDRİSİNDƏ ŞAGİRD ŞƏXSİYYƏTİNİN HƏRTƏRƏFLİ İNKİŞAFI MƏSƏLƏLƏRİNİN KURİKULUM MATERİALINDA QOYULUŞU

***Инал Мубариз оглу Агазаде***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПОСТАНОВКА В МАТЕРИАЛАХ КУРИКУЛУМА ВОПРОСОВ ВСЕСТОРОННЕГО РАЗВИТИЯ ЛИЧНОСТИ УЧЕНИКА ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ

***Inal Mubariz Aghazada***
*Azerbaijan State Pedagogical University*

# RESEARCH ISSUES OF THE PROBLEM OF COMPREHENSIVE DEVELOPMENT OF THE STUDENT'S PERSONALITY IN THE TEACHING OF HISTORY

**Xülasə.** Proqram materiallarını şagirdlərə mənimsətmək, ləyaqətli vətəndaşlar yetişdirmək naminə müəllim indi dünya praktikasında yayılmış və özünü doğrultmuş yeni təlim metodlarından və texnologiyalarından – diskussiya, debat, disput, konfrans, müsabiqə və interaktiv təlim üsullarından, texnikalarından və iş formalarından istifadə etməlidir. Bunlar Vətənimizi sevən, qanunlarımıza hörmətlə yanaşan, azad və demokratik ruhlu, savadlı və ləyaqətli, təşəbbüskar nəslin yetişdirilməsinə kömək edir.
***Açar sözlər:*** *kurikulum, tarix, tədris planı, yeni proqram*

**Резюме.** Для усвоения программных материалов и обучения достойных граждан учитель должен использовать новые методы и технологии обучения, которые сейчас широко распространены и оправданы в мировой практике - дискуссия, дебаты, диспуты, конференции, соревнования и интерактивные методы обучения, техники и формы работы. Все это способствует воспитанию поколения, любящего Родину, уважающего наши законы, обладающего свободным и демократическим духом, а также образованного, достойного и инициативного.
***Ключевые слова:*** курикулум, история, учебный план, новая программа

**Summary.** In order to master the program materials and train worthy citizens, the teacher must use new teaching methods and technologies that are now widespread and justified in world practice - discussion, debate, debate, conference, competition and interactive teaching methods, techniques and forms of work. They help to bring up a generation that loves our country, respects our laws, has a free and democratic spirit, is educated and dignified, and is enterprising.
***Key words:*** curriculum, history, curriculum, new program

"Kurikulum - təhsilin ayrı-ayrı pillələri üzrə təlimin nəticələrini və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, təlim-tərbiyə prosesinin təşkili, təlim nəticələrinin monitorinqi və qiymətləndirilməsinin keçirilmə mexanizmini əhatə edən dövlət sənədidir".

"Fənn məhdudluğunu aradan qaldıraraq, həyati problemlərin dərk edilməsinə və kurikulumun müxtəlif aspektlərini mənalı şəkildə əlaqələndirməklə geniş sahələrin öyrənilməsinə diqqət verən kurikulum". Yakobs fənlərarası kurikulumu "əsas mövzunu, problemi, təcrübəni araşdırmaq üçün müxtəlif fənlər üzrə metodologiyaların və dillərin şüurlu şəkildə tətbiq edildiyi kurikulum yanaşmaları və biliklər kimi izah edir".

Fənlərarası kurikulumda əsas diqqət fənlər arasındakı əlaqələrə yönəlir. Ayrıca fənnə aid olan məzmun və əməliyyatlar məhdudlaşdırılır. Məsələn, qərar qəbuletmə və ya problem həlli fəndən asılı olmayaraq eyni prinsiplərə istinad

edir. Müəllim xüsusi bir mövzu və ya problem üzərində diqqəti cəmləşdirmək üçün fənlərarası əlaqədən istifadə edir. Fənlər arasında ümumilik diqqət mərkəzində dayanır. Nəticədə isə bir neçə fənn üzrə əldə edilən biliklər arasında əlaqə yaratmaqla müəllim şagirdlərin mövzunu daha dərin və əsaslı dərk etməsinə imkan yaratmış olur. Görkəmli akademik H.M. Əhmədovun fikrincə "müasir dövrün savadlı insanı üç keyfiyyətə – geniş biliklərə, düşünmək vərdişinə, tərbiyəyə malik olmalıdır. H.M. Əhmədov təhsil və tərbiyənin mahiyyətini təkcə müəyyən biliklərin həcmində görmür. O, təhsil anlayışına tənqidi düşünməyi, fakt və hadisələr və özünün mənəvi mövqeyini düzgün qiymətləndirməyi bacaran və əlbəttə, tərbiyəsi olan insanı daxil edir". Əsl fənlərarası kurikulumda əsas diqqət düşünmək haqqında düşüncəyə və öyrənməyi necə öyrənməyə verilir. Fənlərarası əlaqə təkcə müxtəlif fənlərin bir-biri ilə əlaqələndirilməsindən ibarət deyildir. Fənlərarası əlaqədən istifadə nəticəsində sinifdə yaradıcı mühit formalaşır. Kursdaxili, kurslararası və fənlərarası əlaqələr dərsin təlim tərbiyə və inkişafetdirici vəzifələrinin yerinə yetirilməsi məqsədilə verilir. Onlar tarixi faktlar anlayışı, səbəb-nəticə əlaqələrinin, qanunauyğunluqların mənimsənilməsinə, tarixi materialın tərbiyəvi imkanlarının gerçəkləşdirilməsinə, mövzunun məzmunu ilə bağlı əsas bacarıq və vərdişlərin formalaşdırılmasına xidmət edir.

2004-cü ildən etibarən Azərbaycanda ardıcıl həyata keçirilən məzmun dəyişiklikləri pedaqoji prosesin sistemli planlaşdırılmasını nəzərdə tutan kurikulum islahatları şəklində reallaşır. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2006-cı il oktyabrın 30-da Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyasını -Milli Kurikulumunu təsdiq etmişdir. Milli kurikulumda ümumi təhsil üzrə təlim nəticələri və məzmun standartları, ümumi təhsilin ayrı-ayrı mərhələlərində keçilən tədris fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatları, təlim-tərbiyə prosesinin təşkili və idarəolunması, təlim müvəffəqiyyətinin monitorinqi və qiymətləndirilməsi ilə əlaqədar başlıca tələblər kompleks halında əks etdirilmişdir. Həmin sənəd əsasında hazırlanmış fənn kurikulumlannda hər bir sinif üzrə təlimin nəticələri, məzmun və qiymətləndirmə standartları, təlim strategiyaları öz ifadəsini tapmışdır.

Fənn kurikulumlarında, hər şeydən öncə təlimin məzmunu verilir. Ənənəvi proqramlarla müqayisədə burada məzmun nəticələr formasında ifadə olunur. Həmin nəticələr məktəblilərin əldə edəcəkləri bilikləri, həmçinin onların fəaliyyətlərini nəzərə çarpdırır. Əsasən bacarıqlardan ibarət olan həmin nəticələr minimum tələb kimi təsdiq edildiyi üçün eyni zamanda standart kimi götürülür. Pedaqoji ədəbiyyatda qeyd edildiyi kimi, fənn kurikulumlarının didaktik əsasında nəticəyönlülük, tələbyönlülük və şəxsiyyətyönlülük prinsipləri dayanır:

– Nəticəyönlülük – təhsilin ayrı-ayrı pillələri, konkret siniflər və fənlərlə bağlı əldə ediləcək təlim nəticələrinin qabaqcadan nəzərdə tutulmasını;

– tələbyönümlülük – təlim məqsədlərinin dövlətin, cəmiyyətin və təhsilalanların tələbatmı ödəməsini;

– şəxsiyyətyönlülük – şagirdlərin maraqlarının, arzu, istək, meyl və qabiliyyətlərini hesaba almaqla mühüm və gərəkli həyati bacarıq və vərdişlərin formalaşdırılmasını məqsədəuyğun hesab edir

Müasir tarix təhsili gənc nəslin həyata hazırlanmasına və nümunəvi vətəndaşın formalaşmasına yönəldilib. Tam orta təhsildə Azərbaycan tarixi ilə ümumi tarix kursları məntiqi-xronoloji ardıcıllıqla öyrədilir. "Tarix təlimi dövlət tərəfindən müəyyən edilmiş tədris planı əsasında hazırlanmış və təsdiq edilmiş proqramlarla tədris olunur və tarix üzrə yeni proqram və dərsliklər hazırlandı. İlk növbədə ümumtəhsil orta məktəbləri üçün "Azərbaycan tarixi" və "Ümumi tarix" proqramlarının tərtibinə daha ciddi diqqət yetirilmişdir" [4]. Tam orta təhsil səviyyəsi üçün "Azərbaycan tarixi" və "Ümumi tarix" proqramları "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"nın tələblərinə əsaslanaraq tərtib edilmişdir. Yeni tarix proqramları – "Azərbaycan tarixi" nin və "Ümumi tarix"nin qarşısında aşağıdakı vəzifələri müəyyənləşdirilmişdir:

– dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmaq;

– öz soy-kökünə, milli-mənəvi zəminə əsaslanan, adət-ənənələrinə, şərəfli tarixi keçmişinə dərindən yiyələnən və ondan iftixar hissi keçirən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan milli vətənpərvərlər yetişdirmək;

– ümumbəşəri dəyərlərə yiyələnən və onları milli-mənəvi zəmin əsasında əlaqələndirməyi, ahəngdar inkişaf etdirməyi bacaran, insan haqları və azadlıqlarına hörmət edən və onlara daim əməl etməyə, Azərbaycanda hüquqi demokratik cəmiyyətin qurulmasına layiqli töhfələr verməyə hazır olan azad və demokratik ruhlu vətəndaşlar tərbiyə etmək.

Proqramlarda orta məktəbdə tarixin tədrisi aşağıdakı kimi müəyyənləşdirilir:

– qədim dövrdən bu günədək bəşəriyyətin keçdiyi tarixi inkişaf haqqında biliklərin əsasının şagirdlər tərəfindən mənimsənilməsinə nail olmaq;

– şagirdlərə tarixi təhlil, müqayisə və ümumiləşdirmə aparmaq bacarıqları formalaşdırmaq əsasında hadisə və prosesləri, fakt və qanunauyğunluqları, anlayışları mənimsətmək;

– şagirdlərdə tarixə inam və hörmət hissini formalaşdırmaq, humanizm ideyalarına, insan hüquqlarına, demokratik dəyərlərə, milli-mənəvi zəminə əsaslanan, öz soy-kökünə, xalqına və millətinə hörmət, vətənpərvərlik və xalqlar arasında qarşılıqlı anlaşma kimi yüksək mənəvi-əxlaqi keyfiyyətləri tərbiyə etmək;

– Azərbaycan xalqının və digər xalqların dininə, dilinə, mədəniyyətinə, tarixi inkişafının müxtəlif məqamlarına maraq yaratmaq, öz ölkəmizin və bütün bəşəriyyətin mədəniyyətini qorumağa və yaşatmağa çalışmaq hissi aşılamaq;

– bütövlükdə Azərbaycan tarixi üzrə baza biliklərini müvafiq olaraq yaxın və uzaq ölkələrin tarixi ilə əlaqələndirmək bacarığı yaratmaq, şagirdlərdə onun yaşadığı region, rayon, şəhər və kəndin tarixinin, vətən tariximizin, eyni zamanda dünya tarixinin tərkib hissəsi olması inamını aşılamaq və s.

Bu proqramlar bəzi cəhətlərinə görə əvvəlkilərdən fərqlənir.

1. Bu proqramlarda tarixi materialların öyrənilməsində sosial-sinfi münasibət deyil, tarixilik, elmilik və obyektivlik metodologiyasının əsas göstərilməsinə ciddi riayət olunmuşdur.

2. Tarixi gerçəkliyə müvafiq olaraq dövrləşməyə yenidən baxılmışdır. Misal olaraq “müasir dövr” məntiqi olaraq “ən yeni dövr” kimi verilmişdir.

3. Bəşər tarixinin ayrı-ayrı dövrlərinin bölgülər üzrə əvvəllər tətbiq edilmiş prinsiplərində dəyişikliklər edilmşidir. Yeni bölgü tarixi inkişaf prosesinə tamamilə uyğundur: çünki ən qədim dövlətlər, sivilizasiyalar Şərqdə meydana gəlmiş, sonrakı mərhələlərdə isə Qərbdə siyasi, iqtisadi, sosial və mədəni sahələrdə dünya inkişafına əhəmiyyətli dərəcədə təsir etmiş, dəyişikliklər baş vermişdir.

4. Ümumi tarix proqramlarında əsas diqqət Şərq və Qərb sivilizasiyalarının üzvi şəkildə tədris edilməsinə, ümumbəşəri dəyərlərin öyrədilməsi ilə yanaşı milli-mənəvi dəyərlərin qabarıq verilməsinə yönəldilmişdir. Belə ki, türk-islam amili, türk-islam xalqlarının zəngin, çoxəsrlik tarixi və mədəniyyəti ilə bağlı məsələlərin dərindən öyrədilməsi ön plana çəkilmişdir.

5. Yeni proqramlarda iqtisadi və sosial münasibətlərin, Azərbaycanın və dünya xalqlarının mədəniyyətinin inkişafı məsələlərinin öyrənilməsinə daha çox vaxt ayrılmışdır.

6. Son illərin hadisələrinin və tarixi proseslərə verilən yeni qiymətin mövcud dərsliklərdə öz əksini tapmadığı nəzərə alınaraq, müəllimə kömək etmək, ona istiqamət vermək məqsədilə proqramlarda müvafiq təlim materialları genişləndirilmiş şəkildə təqdim olunmuşdur.

7. X-XI siniflər üzrə Azərbaycan tarixi proqramlarında əhəmiyyətli dərəcədə məzmun və struktur dəyişikliyi aparılmışdır. Bu proqramlarda xalqımızın milli azadlıq hərəkatı ön plana çəkilmiş, müstəqillik uğrunda mübarizəsi, bu mübarizədə ümummilli liderimiz H. Əliyevin tarixi rolu, öz əksini tapmışdır.

8. Əvvəlki proqramlardan fərqli olaraq təqdim olunan proqramların “Ümumi tarix” hissəsində də “Kursdaxili, kurslararası və fənlərarası əlaqələr”, “Mövzu üzrə formalaşdırılan anlayışlar”, “Şagirdlərin əsas bacarıqları” bölmələri verilmişdir. Bu, tarix proqramlarının tərtibində ilk təcrübədir.

10. Proqramlarda hər bir kursun sonunda bölmələr üzrə zəngin elmi-metodik ədəbiyyatın, habelə sinifdənxaric oxunun siyahısı verilmişdir. İctimai fənlərin təhsil sahəsi seçildiyi siniflərdə, xüsusilə X-XI siniflərdə bu ədəbiyyatdan

müəllimlər, habelə onların tövsiyəsi əsasında şagirdlər də istifadə edə bilərlər. Proqramların sonuna xəritələrin, sxemlərin, cədvəllərin, diaqramların, şəkillərin, audiovizual vasitələrin siyahısı əlavə edilmişidir. Müəllim məktəbin maddi-texniki imkanlarından, həmin materialların çap olunanlarından, özünün və şagirdlərin bacarığından istifadə etməklə təlimi daha səmərəli və məzmunlu təşkil etməyə nail ola bilər.

"Təqdim olunan proqramlarda ən önəmli cəhətlərdən biri bölmələr üzrə "Kursdaxili, kurslararası və fənlərarası əlaqələr", "Mövzu üzrə əsas anlayışlar" və "Şagirdlərin əsas bacarıqları" başlıqları altında verilən metodik tövsiyələr sistemidir". Onlar tarixi faktlar anlayışı, səbəb-nəticə əlaqələrinin, qanunauyğunluqların mənimsənilməsinə, tarixi materialın tərbiyəvi imkanlarının gerçəkləşdirilməsinə, mövzunun məzmunu ilə bağlı əsas bacarıq və vərdişlərin formalaşdırılmasına xidmət edir. Proqramlarda bölmələr üzrə qruplaşdırılan "əsas anlayışlar" hər bir müəllimə dərsin anlayışlar dairəsini müəyyən etməyə, onları qruplaşdırmağa və yerində tətbiq etməyə imkan verir. Onlardan faktik materialın təhlili və qiymətləndirilməsi zamanı istifadə olunur. Təlim materiallarının əsas anlayışlar ətrafında cəmləşdirilməsi şagirdlərin tarixə dair biliklərini sistemləşdirməyə kömək edir. Buna görə də əsas anlayışların şagirdlər tərəfindən mənimsənilməsi təmin olunmalıdır. Bu zaman müəllim unutmamalıdır ki, şagirdin anlamadığı bir faktı, məsələni uzun müddət hafizəsində saxlaması və ondan faydalanması mümkün deyildir.

Təcrübə göstərir ki, anlayışların formalaşdırılması üçün müəllim onların məzmununu şərh etmək və əlamətlərini sadalamaqla kifayətlənməməli, mənimsəmə prosesinin qanunauyğunluqlarına riayət etməli, şagirdləri zəruri təfəkkür əməliyyatlarının icrasına cəlb etməlidir. Bunsuz anlayışların mənimsənilməsi mümkün deyildir. Beləliklə, şagirdin bu istiqamətdə qazanacağı uğurların səviyyəsi onun əqli qabiliyyətlərinin inkişafından asılıdır. Odur ki, proqram materialları şagirdlərə elə çatdırılmalıdır ki, onların hafizə, təfəkkür, təxəyyül və s. psixi fəaliyyət formaları əlaqələndirilsin, normal zehni fəaliyyətləri təmin olunsun. Bu isə müəllimdən tələb edir ki, hər bir konkret dərsə hazırlaşarkən təlim materiallarının məzmununu tələb etdiyi zehni əməliyyatları konkret olaraq müəyyənləşdirsin və dərs prosesində bütün şagirdlərin həmin əməliyyatları icra etmələrinə nail olsun. "Bu işin öhdəsindən gəlmək üçün proqram bölmələrinin sonunda verilmiş "şagirdlərin əsas bacarıqları" tövsiyəsindən istifadə edilməlidir". Bunlar dərsin əsas məsələlərinin, anlayışlarının mənimsənilməsi üçün tələb olunan zehni əməliyyatları müəyyənləşdirməkdə müəllimə istiqamət verə bilər. Bu tövsiyənin əsas mənası mövzunun məzmununa müvafiq əlaqələndirmə, müqayisə etmə, təhlil etmə, ümumiləşdirmə və nəticə çıxarma üsulları ilə şagirdlərin təfəkkür qabiliyyətini üzə çıxarmaq, onlarda bacarıq vərdişləri formalaşdırmaqdır.

**Problemin aktuallığı.** Kurikulum təhsil prosesinin məqsədinə əsasən, müvafiq dövlət standartlarına uyğun şəkildə, bu və ya digər təhsil pilləsi və istiqamətləri üzrə təhsilin məzmununa və mənimsənilmə qaydalarına aydınlıq gətirir. Kurikulum tədris planını, ayrı-ayrı fənlər üzrə tədris proqramlarını, metodik təminatla əlaqədar tövsiyələri, qiymətləndirmə və başqa təhsil texnologiyalarını özündə birləşdirir.

**Problemin yeniliyi**. Proqramın yeniliyinə aşağıdakılar aiddir:

– dərin və əhatəli bilik

– soy-kökünün, milliyyətinin keçmişini dərindən öyrənmə

– ümumbəşəri dəyərlərə yiyələnən və onları milli-mənəvi zəmin əsasında əlaqələndirmək.

**Problemin praktik əhəmiyyəti.** "Şagirdlərin inkişafı, tərbiyəsi, onların fəal ictimai-siyasi həyata hazırlanması üçün də bu tövsiyənin müstəsna əhəmiyyəti vardır. Müəllim "Bacarıqlar"dakı tövsiyələrdən istifadə edərək şagirdlərdə konkret mövzular üzrə proqramda göstərilən vacib problemlər, məsələlər üzrə müstəqil bilik əldə etmək, məlumat, məruzə, müsahibə və referat hazırlamaq, icmal və tezislər, cədvəllər tərtib etmək, yoldaşları, valideynlər qarşısında çıxış etmək, ümummәktəb tədbirlərindən iştirak etmək vərdişləri aşılamalıdır". Proqramın sözügedən tövsiyəsi şagirdlərdə proqnozlaşdırmaq vərdişlərinin də formalaşdırılmasına kömək edir.

**Ədəbiyyat:**

1. Kərimov F.Y., Əhmədova M. C., Varella G., Reyli Ə. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr Bakı: Adiloğlu, 2005.

2. Əhmədov H.M., Həsənov A. V., Bayramov H.B. İdarəetmənin pedaqogika və psixologiyası. Bakı, 2004.
3. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası. Bakı, 2011.
4. Крутецкой В.А. Психология. М.: Просвешение, 1986.
5. Abbasov A.N. Pedaqogika (müxtəsər konspekt və sxemlər). Bakı, 2007.
6. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün tarix proqramları. Bakı, 2000.
7. Əmirov M.M. Orta məktəbdə tarixin tədrisinin aktual problemləri. Bakı, 2009, 160 s.

**E-mail:** inal.agazade@gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok, prof.* **M.M. Əmirov**
*ped.ü.fəls.dok. D. Musayev*

**Redaksiyaya daxil olub:**15.03.2021